# Formula 1 yarışları Azərbaycana etimadın yüksək nümunəsi oldu

***Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş idman siyasəti bu gün dövlətimizin başçısı tərəfindən çox böyük uğurla davam etdirilir. İdmana göstərilən diqqət və qayğının nəticəsidir ki, təmsilçilərimiz beynəlxalq yarışlarda çoxsaylı medallar qazanırlar. 25 il əvvəl – 1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkəmizdə bu sahədə görülən işlər daha geniş vüsət alıb. İdmanın maddi-texniki bazasının formalaşdırılması, idmançılarımızın təminatının yüksək səviyyəyə çatdırılması, onlar üçün lazımi şəraitin yaradılması görülən işlərin bariz nümunələridir.***

Məhz bu diqqət və qayğının nəticəsində idmançılarımız beynəlxalq yarışlara yüksək səviyyədə hazırlaşır, çempionluq qazanaraq bayrağımızı dalğalandırır, himnimizi səsləndirirlər. Ölkəmizin medalların sayına görə ön sıralara yüksəlməsi hər birimizi fərəhləndirir. İdmançılarımız beynəlxalq yarışların qalibi olmaqla yanaşı, Azərbaycan olimpiadaların, beynəlxalq idman yarışlarının yüksək səviyyədə keçirildiyi ölkəyə çevrilib. Birinci Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını, habelə Formula 1 kimi beynəlxalq yarışları yüksək səviyyədə təşkil edən Azərbaycan beynəlxalq aləmdə layiqli yerini tutub. İdmançılarımızın qazandığı qələbələr istər sabahımızın sahiblərininin vətənpərvər ruhda böyüməsində, istərsə də bədən tərbiyəsinin kütləviləşməsində və sağlam vətəndaş yetişdirilməsində mühüm rol oynayır.

Ölkəmiz son illərdə bir çox beynəlxalq tədbirlərin böyük uğurla keçirildiyi sülh məkanına çevrilib. Azərbaycan 2016-cı ildən Formula 1 yarışlarına peşəkarlıqla evsahibliyi edir. 2020-ci ildə koronavirus pandemiyası ilə əlaqədar Bakıda yarışlar təxirə salınsa da, ötən il və bu il pandeminyanın sürətinin zəifləməsi yarışların keçirilməsinə imkan verib. Formula 1-in Azərbaycandakı təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin ciddi çalışmaları nəticəsində yürüşlər uğurla keçib.

Sürəti və dramatikliyi ilə tanınan Bakı trekində əvvəlki beş yarış yüksək səviyyədə maraqlı və gərgin idman mübarizəsi şəraitində keçmişdi. Buna görə də həm azarkeşlər, həm pilot və marşallar, həm də komandaların rəsmi




nümayəndələri budəfəki yarışları böyük həvəslə gözləyirdilər. Ümidlər yenə də özünü doğrultdu. Yüksək təşkilatçılıq, yaradılan şərait, ildırımsürətli və şiddətli sıçrayışlar, gözlənilməz məqamlar, gərgin strateji çarpışmalar, seyrçi heyrətləri, ekstremal anların adrenalin dolu həyəcanları "Bakı sindromu" deyilən turu səciyyələndirən əsas amillərdir.

Azərbaycanın öncül dünya idmanı ölkələri arasında yerinin ilbəil möhkəmlənməsinə sübut üçün deyək ki, ötənilki yarışların qiymətləndirilməsi ilə əlaqədar məşhur "RaceFans" nəşri Formula 1 tarixinin ən yaxşı Qran-Prisinin seçilməsi məqsədilə istifadəçilər arasında sorğu keçirib və sorğuda 200 minə yaxın oxucu iştirak edib. Dünya çempionatının son mövsümündən 8 yarış "Top-100" siyahısında yer alıb. Həmin yarışlar arasında Azərbaycan Qran-Prisi də var. Ötən il iyunun 4-6-da "Bakı Şəhər Halqası"nda təşkil olunan yarış bir daha göstərib ki, Azərbaycan həqiqətən də əsl idman ölkəsidir.

Aylardı ki, yarışların növbəti Bakı mərhələsinə tükənməz maraq yaşanırdı. Mart ayında Soçidə keçirilməli olan Rusiya Formula 1 Qran-Prisinin ləğvindən sonra təqvimin müəyyən dəyişikliklərə məruz qalacağı gündəmə gəlmişdi və həmin yarışı əvəz edə biləcək qran-prilər arasında seçim edilirdi. Formula 1 rəhbərliyi daha çox iki variant – Portuqaliya və Türkiyə variantları üzərində düşünürdü. Xatırladaq ki, ötən mövsüm həm "Portimao", həm də "İstanbul Park"da yarış təşkil olunub. Gələcək təqvimlərdə 30-dək Qran-Pri təşkil etmək imkanı araşdırılır. Formula 1 yarışı keçirmək istəyənlər arasında Las-Veqas ön sıradadır. ABŞ və Çində, Afrika qitəsində də qran-prilərə evsahibliyi etmək istəyənlər var.

Onu da qeyd edək ki, fanatlar üçün pilot və marşalların idmandankənar həyat olayları da daimi maraq kəsb edir. Məsələn, İtaliya hökumətinin rusiyalı






milyarder Dmitri Mazepinə və onun oğlu – Formula 1 pilotu Nikita Mazepinə məxsus 105 milyon avro dəyərində aktivləri dondurması xəbəri əksər saytları dolaşıb. Bu qərar İtaliya maliyyə polisi ("Guardia di Finanza") tərəfindən Avropa İttifaqının (Aİ) Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar çərçivəsində qəbul olunub. Ötən il Formula 1-də "Haas" komandasının sürücüsü olan Nikita Mazepinin müqaviləsi bu ilin əvvəlində yenidən uzadılsa da, Rusiya – Ukrayna münaqişəsi səbəbindən ona xitam verilib.

Yarışlara canlı şəkildə baxmaq üçün qiymətlərin fərqindən asılı olmayaraq, bilet satışında da müəyyən ajiotaj olub. Azərbaycan Qran-Prisinə ilk bileti hələ bir neçə ay öncə bir Türkiyə vətəndaşının alması barədə xəbər yayımlanmışdı. Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən (BŞH) məlumat verilmişdi ki, fevralın 22-dən satışa çıxarılan Formula 1 Azərbaycan Qran-Prisinə biletlər daha çox Türkiyə, Rusiya və Böyük Britaniya vətəndaşları tərəfindən əldə edilib. Həmçinin İspaniya, Niderland, Danimarka, Fransa, Norveç və sair ölkələrin azarkeşləri say etibarilə çoxluq təşkil ediblər. Tamaşaçılar daha çox tribuna (grandstand) zonasına maraq göstəriblər. Üzbəüzdə quraşdırılmış monitorlar onlara 6 kilometrlik və 51 dövrəlik trasın bütün mərhələlərində mübarizəni izləmək imkanı yaradıb. Ötən il COVID-19 pandemiyası ilə əlaqədar yarışı canlı izləyə bilməyən azarkeşlər builki idman həyəcanına ikiqat maraqlı olublar. Ona görə də biletlər yerli azarkeşlərə və uşaqlara tribunalarda əyləşməklə, eləcə də ayaqüstü zonada durub baxmaqla birgünlük və üçgünlük olaraq satılıb. Biletlərin satışı müxtəlif kassalarda, həmçinin "ASAN xidmət" mərkəzlərində təşkil edilib. Onu da bildirək ki, ölkəyə turist axını güclü olduğu üçün Bakının mərkəzində və mərkəzə yaxın yerlərdə günlük kirayə verilən mənzillərin eyvanlarından da yarışlar izlənilib.

Xatırladaq ki, noyabrın 20-dək davam edəcək mövsümdə 23 yarışın keçirilməsi planlaşdırılıb. Dünya çempionu Maks Verstappenin traslarda tacını qorumağa çalışacağı, Corc Rasselin yeddiqat çempion Lyuis Həmiltonla birlikdə gəlişi ilə Mersedesin zirvəyə dönüş edəcəyi proqnozları özünü doğruldur. Bəhreyn, Ciddə, Melburn, İmola, Mayami və Barselona şəhərlərində, həmçinin Monako şəhər-dövlətinin Monte-Karlo ərazisində keçirilmiş Qran-prilərdən sonra bütün diqqətlər Bakıya yönəlmişdi. Hələ aprel ayında Azərbaycan Qran-Prisinə yerli media nümayəndələrinin akkreditasiyası keçirilmişdi. 2022-ci il üzrə dünya çempionatında yer alan bütün yarışlar üçün media nümayəndələrinin qeydiyyatı Beynəlxalq Avtomobil Federasiyası (FIA) və "Formula One Management" (FOM) şirkəti tərəfindən reallaşdırılıb.

Eyni zamanda, Formula 1-ə kömək üçün könüllülərdən istifadə edilib. Onların seçimində 16 yaşdan yuxarı, xarici dilləri bilən və böyük həvəs, əzmkarlıq göstərən gənclərə üstünlük verilib. Seçimdən uğurla keçən könüllülər üçün zəruri təlim, seminar və danışıq klubları təşkil olunub, onlar insan resursları, işçi qüvvəsi, media əməliyyatları, tamaşaçı xidmətləri, şəhər əməliyyatları, marşal klubu əməliyyatları, inzibati əməliyyatlar, hava limanı əməliyyatları və digər zəruri istiqamətlərdə layiqincə çalışıblar. Burada bir əsas məqsəd də könüllülərdə komanda ruhunu artırmaq, kollektivlə işləmək bacarığını inkişaf etdirməkdir.

Əvvəlki mərhələlərdə olduğu kimi, Bakı Qran-Pri yürüşlərini də bir çox məşhur teleşirkətlər, o cümlədən Britaniya krallığının "SKY Sports F 1" qrupu yayımlayıb və onların vasitəsilə bütün dünya bu yarışları canlı izləyə bilib. Əsas yayımçı şirkət "İdman-Azərbaycan" kanalı olub. Sözsüz ki, Bakı Qran-Prisi eyni vaxtda Sankt-Peterburqda keçirilən avtoçoxnövçülük üzrə çempionatın 4-cü mərhələsindən daha geniş miqyaslı yarış idi. Rusiyanın Şimal paytaxtında rallinin izləyici auditoriyası da Bakıdakından xeyli az idi. Amma şənbə günü Slovakiyanın Koşitse şəhərində keçirilən mini-futbol üzrə Avropa çempionatının final görüşünü azarkeşlər heç də arxa plana atmamışdılar. Çünki həmin axşam Azərbaycan yığması altıqat qitə çempionu Ruminiya komandasına qarşı mübarizə aparırdı. Mini-futbolçularımız 1:0 hesabı ilə qalib gələrək ilk dəfə qızıl medallara sahib oldular. Beləcə, futbol sevincimiz Formula 1 həyəcanlarımıza əlavə rəng qatdı.

Qra-Prinin yekunlarına gəlincə, "Red Bull Racing" komandasının niderlandlı pilotu Maks Ferstappen 1-ci olmaqla cari mövsümdə beşinci qələbəsini qazanıb. Özü də o, ilkin 14 dövrədə rəqiblərindən geri qalsa da, sonradan irəli çıxa bilib. Bakı uğuru niderlandlı pilotun karyerasında 25-ci qələbədir. Formula 1 Azərbaycan Qran-Prisi qalibinin dedikləri:

–Ötən il Formula 1 Azərbaycan Qran-Prisi mənim üçün uğursuz olmuşdu. Son anda qələbəni əldən vermişdim. Ancaq bu gün azarkeşlər gözəl yürüşün şahidi oldular. "Ferrari" komandasının pilotlarının mübarizəni erkən dayandırmaları işimizə yaradı. Biz rəqiblərə nisbətən daha sürətli idik. Bakı yarışı bizim üçün uğurlu alındı, çünki komandamız qələbə dubluna imza atdı. Növbəti yarış gələn həftə Kanada Qran-Prisi olacaq. Bu haqda danışmaq çətindir. Hər yarış digərindən fərqli və özəl olur.

Qeyd edək ki, Formula 1 Azərbaycan Qran-Prisinin 2-ci pilləsində "Red Bull Racing" komandasının digər pilotu Serxio Peres yer alıb. İlk üçlüyü "Mercedes"in pilotu Corc Rassel tamamlayıb. Azərbaycan Qran-Prisində ən yaxşı dövrə isə Serxio Peresə məxsusdur. Meksikalı pilot dövrəni 1 dəqiqə 46,046 saniyəyə qət edib. Onun bu uğuru 36-cı dövrəyə təsadüf edib.

Pilotlar üçün Bakı trasında Filarmoniya döngəsi ən çətin döngə olub. Ona qalsa, Azərbaycan Dövlət Akademik Filarmoniyası elə musiqiçilər üçün də uğurun asan qazanıldığı yer deyil. Hər xanəndə orada yüksək zəngulə vura bilmir, handa ki, bolidlərin mühərrik səsləri ola.

Qran-Pridə heç kəsin bolidinin təkəri partlamasa da, bəzi yüngül qəzalar baş verib ki, bu da təbiidir. Heç bir iştirakçı bundan sığortalanmayıb. DAMS komandasından israilli Roy Nissani qoruyucu səddə çırpılıb. İlk dəfə Formula 2-də "Charouz Racing System"də çıxış edən türkiyəli pilot Cem Bölükbaşı də eyni aqibəti yaşayıb və onlar mübarizəni dayandırmalı olublar. "Campos Racing" komandasından Olli Kalduell "Van Amersfoort Racing"in sürücüsü Amauri Kordelle toqquşub. "Ferrari" komandasının pilotu Şarl Leklerin isə avtomobilində 21-ci dövrədə problem aşkarlanıb. Onun bolidinin mühərriki tüstülədiyi üçün pilot mübarizədən kənarlaşıb.

Azərbaycan Qran-Prisi finiş xəttinə çatsa da, təəssüratlar bitmir. Avtoidman "kraliçası" sayılan Formula 1-in Bakı səhifələri dünyanın idman ictimaiyyətinin maraq dairəsindən çıxmır. "Alpine" komandasının pilotu, ispaniyalı ikiqat dünya çempionu Fernando Alonsonun bu yarışlarda yeni rekorda imza atdığı, ən uzun karyeraya malik sürücü adına yiyələndiyi bildirilir. Alonso Formula 1-də 2001-ci ilin martında debüt edib. "Renault", "McLaren" və "Ferrari" komandalarının sabiq sürücüsü Azərbaycan Qran-Prisində 21 il 3 ay və 8 gününü tamamlayıb. Əvvəlki rekord isə artıq karyerasını başa vurmuş yeddiqat dünya çempionu Mixael Şumaxerə məxsus idi.

Şərhçilər yarışın yüksək təşkili barədə fikirlərini paylaşmaqla bərabər, mübarizəni izləyən fəxri qonaqlar arasında şəhid və qazi ailələrinin üzvlərinin də olduğunu xüsusi vurğulayırlar. Qeyd olunur ki, bununla bağlı onlara hələ bir neçə gün əvvəldən dəvət göndərilib. Final günü 570 qazi Formula 1-i tribunalardan izləyib.

Bakı treki elə qurulub ki, əcnəbi izləyicilər UNESCO-nun Ümumdünya Mədəni İrsi Siyahısına daxil olan İçərişəhəri, Bakının müasir memarlıq nümunələrini və Xəzəri paytaxtımızla birləşdirən, gözoxşayan sahilboyu mənzərələri görə bilirlər. Bu isə turistik təəssüratlar yaradılması baxımından çox önəmlidir. "Red Bull Racing" komandasına azarkeşlik etmək üçün Bakıya gəlmiş misirli Amor Maqdi deyib ki, Formula 1 Azərbaycan Qran-Prisinin əyləncə zonası çox maraqlıdır və burada gözəl vaxt keçirmək üçün hər cür şərait var: "Yarışın Xəzər dənizinə yaxın keçirilməsi çox gözəl ideyadır. Çünki yarışları izləməklə yanaşı, dənizin gözəlliyini də seyr etmək imkanımız olur. Azərbaycanlılar çox qonaqpərvər və mehribandırlar. Özümü burada yad kimi hiss etmirəm. Qalib gələn və Bakı podiumunda yer alan bütün pilotları təbrik edirəm".

Bəli, artıq tarixə çevrilən Formula 1 avtoyürüşləri Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarını layiqincə keçirməyə qadir olduğunu yenidən nümayiş etdirdi. Əlbəttə, qlobal miqyaslı tədbirlərin keçirilməsi üçün Azərbaycana yüksək etimadın göstərilməsi təsadüfi deyil. Bu, respublikamızın dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar arasındakı güclü nüfuzunun, idman sahəsində əldə etdiyi mühüm uğurların parlaq ifadəsidir.

İdmanı obrazlı şəkildə yumşaq güc nümayişi də adlandırırlar. Bu baxımdan yanaşsaq, deyə bilərik ki, Bakı növbəti dəfə yumşaq güc diplomatiyası ilə dünyaya öz mesajlarını ünvanladı.

Gələcəkdə bu kimi yarışlarda Azərbaycan pilotlarının da iştirakı arzusu ilə:

***Əli NƏCƏFXANLI,***
***Elşən AĞALAROV (foto),***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 14 iyun.- S.10.